# Cəlil Məmmədquluzadənin ev-muzeyi ümummilli liderimiz Heydər Əliyevin yadigarıdır



"Azərbaycan öz milli ənənələrini, dini dəyərlərini qoruyub saxlayaraq, inkişaf etdirərək eyni zamanda dünyəvi mədəniyyətə doğru gedibdir. Azərbaycan xalqının buna nail olmasında Azərbaycanın böyük simalarının, o cümlədən dahi insan Cəlil Məmmədquluzadənin - Mirzə Cəlilin xüsusi xidməti və rolu olubdur".

Heydər ƏLİYEV

**XX əsr Azərbaycan ədəbiyyatının qüdrətli nümayəndələrindən olan böyük dramaturq, yazıçı,mühərrir Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" ədəbi məktəbini yaratmışdır. Böyük yazıçının əsərləri ədəbiyyatımızda realizmi bütün xüsusiyyətləri ilə öyrənmək baxımından əvəzsiz xəzinə olmaqla bərabər xalq həyatının aynasıdır. Cəlil Məmmədquluzadə yaradıcılığı xalq həyatını bütün əlvan rəngləri ilə ədəbiyyata gətirən, qələmi vətəndaş cəsarəti ilə xalqın səadəti üçün səfərbər edən böyük söz ustadıdır.**

## Naxçıvan

Keçən əsrin əvvəllərindəki Azərbaycan kəndi, kəndlisi, onun həyat və məişəti, təfəkkür tərzi Cəlil Məmmədquluzadə yaradıcılığında böyük sənətkarlıqla ədəbiyyata gətirilmişdir. Məhz buna görə də böyük söz ustadının qələmindən çıxan hər bir əsər bu gün də sevilə-sevilə oxunur, tədqiq olunur, xalq tərəfindən sevilir.

Böyük yazıçının Naxçıvan şəhərində Ev Muzeyinin yaradılması haqqında dəfələrlə Azərbaycanın köhnə rəhbərliyinə müraciət edilsə də bunlar cavabsız qalmışdır. Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ikinci dəfə

hakimiyyətə qayıdışından sonra böyük işlər görülməyə başlanmışdır. Ümummilli liderimiz Heydər Əliyev 19 iyun 1998-ci ildə "Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərində Ev Muzeyinin yaradılması haqqında" sərəncam imzalamışdır. Böyük yazıçı və dramaturqun xatirəsini əbədiləşdirmək məqsədilə verilən bu sərəncamın əhəmiyyəti əvəzsizdir. 1999-cu il oktyabr ayının 13-də doğma Naxçıvanda görkəmli yazıçı-publisist, dramaturq, ictimai xadim Cəlil Məmmədquluzadənin Ev Muzeyinin təntənəli açılışında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hərarətlə çıxış etdi. Bu çıxış ümummilli liderimizin Cəlil Məmmədquluzadə irsinə böyük məhəbbət və qayğısı ilə dolu olan bir çıxış idi. C.Məmmədquluzadənin Ev Muzeyinin açılışında ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Cəlil Məmmədquluzadənin yaradıcılığı həqiqətən unudulmayıbdır. Ancaq hesab edirəm ki, onun fəaliyyətinə, yaradıcılığına nə qədər yüksək qiymət versək də, yenə də onun borcundan çıxa bilmərik".

Xalqımızın ümummilli lideri Cəlil Məmmədquluzadə irsinə yüksək qiymət verməklə bərabər, həm də səmimi duyğularını buraya toplaşan naxçıvanlılarla bölüşürdü: "Bilirsiniz, mən xoşbəxt günlərimdən birini yaşayıram. Nə üçün? Çünki arzuma çatmışam. Çünki Mirzə Cəlilin Ev Muzeyini yaratmaq istəmişəm, bunu da yaratmışam. Azərbaycanın möhtəbər adamları ilə bir yerdəyəm və bunu bir yerdə açırıq."

Bu fikirlər xalqımızın böyük oğlu Heydər Əliyevin Cəlil Məmmədquluzadə irsinə verdiyi ən böyük qiymətdir. Naxçıvan şəhərindəki C.Məmmədquluzadənin Ev Muzeyi muxtar respublikada Cəlilkənd və Nehrəm Xatirə muzeylərindən sonra yaradılan, böyük yazıçının ev-muzeyi kimi fəaliyyətə başlayan üçüncü muzeydir. Ulu öndərin yadigarı olan bu ev-muzeyində Cəlil Məmmədquluzadənin ədəbi-bədii irsi, ictimai-siyasi fəaliyyətini təbliğ etmək üçün hər bir şərait yaradılmışdır.

Qeyd edim ki, böyük söz ustasının ev-muzeyi foyedən və iki otaqdan ibarətdir. Muzeyin birinci mərtəbəsində xidmət otağı və muzeyin fondu yerləşir. İkinci mərtəbədəki bir otaq yazıçının həyatına, ikinci otaq isə yaradıcılığına həsr olunmuşdur.

Cəlil Məmmədquluzadənin ev-muzeyinin fondunda 1000-ə yaxın eksponat toplanıb mühafizə olunur. Ev-muzeyinin ekspozisiyasında isə 250-dən çox eksponat nümayiş etdirilir.

Azərbaycanın xalq rəssamı Hüseynqulu Əliyevin çəkdiyi Cəlil Məmmədquluzadənin oğlanları Ənvər və Midhətlə birlikdə portreti, Cəlil Məmmədquluzadənin ömür-gün yoldaşı Həmidə xanım Cavanşiri, ədibin qızı Münəvvərin portretləri muzeyin ikinci mərtəbəsini bəzəyir.

İstedadlı teatr rəssamı Əli Səfərlinin C.Məmmədquluzadənin "Çay dəstgahı", "Poçt qutusu","Danabaş kəndinin əhvalatları" əsərlərinin motivləri əsasında hazırladığı panoramla birlikdə maketlər nəzər diqqəti cəlb edir.

Cəlil Məmmədquluzadə Azərbaycan və dünya ədəbiyyatının bir sıra nəhəng simalarından olan Nizaminin, Füzulinin, M.FAxundovun, Xəyyamın, Sədinin, Puşkinin, Çexovun, Qoqolun, Tolstoyun və başqalarının əsərlərinə dərin bələd olmuş, onların əsərlərini mütaliə etmişdir. Muzeydə bu söz ustalarının kitabları mühafizə olunub nümayiş etdirilir.








Böyük yazıçımız Azərbaycan folkloruna, xalq musiqisinə böyük məhəbbət bəsləmiş, xalqının zəngin sənət xəzinəsindən həmişə bəhrələnmişdir. Həmidə xanımın və müasirlərinin xatirələrindən məlum olur ki, Mirzə Cəlil vaxt tapdıqca kamança da çalırmış. Bunu nəzərə alaraq böyük ədibin ev-muzeyində o dövrə aid kamança da nümayiş etdirilir. Muzeyimizdə böyük yazıçının qızı Münəvvər xanıma məxsus olan piano da məhəbbətlə qorunub saxlanılır.

Cəlil Məmmədquluzadənin nəslini davam etdirən, hazırda dünyanın müxtəlif ölkələrində yaşayan 5 nəvəsi, 8 nəticəsi vardır. Akademik İsa Həbibbəyli bu nəslin davamçıları haqqında əsaslı araşdırmalar aparmış və onlarm bir neçəsi ilə görüşmüşdür. Onlar dünyanın İran, Fransa, Polşa və başqa ölkələrində yaşamaqdadırlar. Bunu nəzərə alaraq böyük yazıçının ev-muzeyində "Cəlil Məmmədquluzadə nəslinin davamçıları" adlı guşə də yaradılmışdır. Burada ədibin kiçik oğlu Ənvərin ailəsinin, nəvələrinin fotoşəkilləri öz əksini tapmışdır.

Muzeyin ikinci otağında C.Məmmədquluzadənin məslək və əməl dostlarından M.Ə.Sabirin, M.S.Ordubadinin, Ə.Əzimzadənin portretləri nümayiş etdirilir. Böyük yazıçıya məxsus bir sıra sənədlər də buraya gələnləri özünə cəlb edir.

Cəlil Məmmədquluzadə yaradıcılığı həmişə müasir həyatdan,zamanın ictimai mübarizələrindən, canlı xalq həyatından qidalanmışdır. Ədibin xalq həyatından qidalanan əsərləri müxtəlif illərdə toplanılaraq kütləvi tirajlarla çap edilmişdir. Yazıçının müxtəlif illərdə çap olunmuş kitabları, "Molla Nəsrəddin" jurnalının orijinal nüsxələri də muzeyin eksponatları arasındadır. Muzeydə Mirzə Cəlilin müasirləri, tədqiqatçıları, "Molla Nəsrəddin" ədəbi məktəbi ilə bağlı yaradılmış guşələr də diqqəti cəlb edir.

Azərbaycan teatrının inkişafında Cəlil Məmmədquluzadənin xidmətləri əvəzsizdir.Bu haqda görkəmli ədəbiyyatşünaslar M.Cəlal, Ə.Sultanlı, M.Rəfili, İ.Həbibbəyli, C.Cəfərov və başqaları dəyərli fikirlər söyləmişlər. Teatrımızın inkişafını düşünən böyük yazıçı və dramaturq Cəlil Məmmədquluzadə yazırdı: "Hər bir şey dünyada tərəqqi eyləyən kimi, teatrımız da, şəkk yox,tərəqqi edə gərək", Naxçıvan teatrının yaradıcılarından olan Mirzə Cəlil həm də bu teatrın fədailərindən idi.Böyük yazıçı bu haqda yazırdı: "... Naxçıvanda teatr həvəskarları, mən də onların içində teatr oynayırdıq. Və onun mənfəəti kasıb məktəb şagirdləri üçündür"...

Bütün bunları nəzərə alaraq, həm də Naxçıvan teatrının 125 illiyi ilə bağlı "Cəlil Məmmədquluzadə və teatr" guşəsi yaratmışıq. Guşədə böyük dramaturqun səhnə əsərlərinin tamaşalarına xüsusi diqqət yetirmişik.

Bütün mənalı ömür yolunu Azərbaycan xalqının azadlığı və xoşbəxtliyi yolunda həsr edən böyük söz və mədəniyyət dühası, ictimai fikir nəhəngi Cəlil Məmmədquluzadənin yaradıcılığı zəngin xəzinədir. Bu xəzinənin incilərindən isə xalqımızın gələcək nəsilləri daim bəhrələnəcək, milli dirçəlişimizin inkişafına xidmət edəcəklər. Biz muzey əməkdaşlarının vəzifəsi bu zəngin irsi qorumaq, təbliğ etmək, öyrənmək və gələcək nəsillərə ərmağan etməkdir.

**● Yaqut MEHDİYEVA,**
*Cəlil Məmmədquluzadənin ev-muzeyinin direktoru*